**Salah əl-Budeyr**

# İBADƏT TÖVHİDİNİN ƏLAMƏTLƏRİ

**www.islamevi.az**

**Bu kitab, DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN 20/06/2006 tarixli № DK – 221d saylı razılığı ilə nəşr edilmişdir.**

**Kitabın müəllif hüquqları qorunur.**

# İBADƏT TÖVHİDİNİN ƏLAMƏTLƏRİ

Hökmdarlığı uca və güclü olan, gücü çox və qalib olan, dilədiyinə izzət verən və yardım edən, hikməti ilə bəzi qövmləri ucaldan və bəzi qövmləri alçaldan ALLAH`a həmd olsun. Qum dənələrindən və yağış damlalarından çox olan nemətləri üçün Ona həmd edirəm. İnkar və küfr edənin inadına şəhadət edirəm ki, ALLAH`dan başqa haqq ilah yoxdur. O, Təkdir və şəriki yoxdur. Şəhadət edirəm ki, Muhəmməd Onun qulu və Rəsuludur. İnsanların əfəndisidir. Möcüzə, ayələr və surələrlə dəstəklənmişdir. ALLAH Ona, ailəsinə, xeyirli öndər və seçilmiş rəhbərlər olan səhabələrinə xeyi-dua və çoxlu salam etsin.

Ey ALLAH`ın qulları! Gizli və aşkar işlərdə Onu düşünün. Səhər və axşam Ona layiqincə ibadət və nemətlərinə şükr edin.

Çünki O ﷻ, şükr edən üçün nemətlərini artıracağını bildirmişdir. Onun ﷻ uca məqamından qorxun və əzabından çəkinin.

***"Ey iman gətirənlər! ALLAH`dan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda (**müsəlman kimi**) ölün!"***[1]

Ey müsəlmanlar! ALLAH`ı ﷻ təqdir edin. Ucalığının əlamətlərinə diqqət edin. İmanınızın artması və Onun ﷻ önündə boyun əyməniz üçün ayələri və mülkü haqqında, hökmdarlığı, valeh edici yaratması və yoxdan var etməsi haqqında düşünün. ALLAH ﷻ, Kitabında belə buyurur:

***"Yerdə (**ALLAH`a**) tam yəqinliklə inananlar üçün (**Onun əzəmət və qüdrətinə, vəhdaniyyətinə dəlalət edən**) əlamətlər vardır."***[2]

---

1 Ali İmran surəsi, 3/102.
2 əz-Zariyat surəsi, 51/20.

Həmçinin belə buyurur:

***"Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində** (bir-birinin ardınca gəlib-getməsində)* ***ağıl sahibləri üçün** (ALLAH`ın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq)* ***dəlillər vardır."***[3]

Abdullah ibn Məsud ﷺ belə deyir: "Dünya səması ilə ondan əvvəlki səma arasında beş yüz illik bir məsafə vardır. Hər iki səma arasında beş yüz illik bir məsafə vardır. Yeddinci səma ilə Kürsü arasında beş yüz il vardır. Ərş, suyun üzərində, ALLAH ﷻ da Ərşin üzərindədir və O ﷻ, sizin etdiklərinizi bilir."[4]

---

3 Ali İmran surəsi, 3/190.
4 əd-Darimi, "ər-Raddu Alə`l-Cəhmiyyə".

Peyğəmbər ﷺ belə buyurur:

*"Yeddi qat səma Kürsünün yanında yer üzündə boş bir sahəyə atılmış bir halqa kimidir. Ərşin Kürsüyə üstünlüyü isə, o sahənin o halqaya üstünlüyü kimidir."*[5]

İbn Cərir təfsirində öz isnadı ilə İbn Abbasın رضي الله عنهما belə dediyini rəvayət edir: "Yeddi qat səma və yeddi qat yer ALLAH`ın عز وجل əlində ancaq sizdən birinin əlindəki bir xardal dənəsi kimidir."

Ey müsəlmanlar! ALLAH`ın عز وجل əzəmətinin və qüdrətinin dəlillərindən biri də Abdullah ibn Məsuddan رضي الله عنه rəvayət edilən bu hədisdir:

"Yəhudilərdən bir alim Rəsulullahın ﷺ yanına gələrək belə deyir: "Qiyamət günü ALLAH göyləri bir barmağı, yerləri bir barmağı, suyu və torpağı bir barmağı, digər

---

5 əl-Beyhəqi, "əl-Əsmau va`s-Sıfətu".

məxluqatı da bir barmağı üzərinə qoyar. Sonra onları hərəkət etdirərək "Məlik ancaq mənəm" buyurur." Abdullah ibn Məsud belə deyir: And olsun ki, Peyğəmbəri onun sözündən razı və söylədiyini təsdiq edərək arxa dişləri görünənə qədər güldüyünü gördüm. Sonra Rəsulullah ﷺ bu ayəni oxudu:

**"(*Müşriklər*) *ALLAH`ı lazımınca qiymətləndirmədilər* (*uca tutmadılar*)*. Halbuki Qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə bükülləcəkdir.* (*ALLAH müşriklərin Ona*) *aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır!*"**[6]

Yenə Rəsulullah ﷺ belə buyurur:

*"ALLAH`ın Ərşini daşıyan mələklərindən, qulağı ilə çiyini arasında yeddi yüz illik məsafə olan bir mələk haqqında danışmağa izin verildi."*[7]

---

6 əz-Zumər surəsi, 39/67; əl-Buxari, Muslim.
7 Əbu Davud.

Əbu Hureyrədən ﷺ Peyğəmbərin ﷺ belə buyurduğu rəvayət edilir:

*"ALLAH səmada bir əmrə qərar verdikdə, mələklər Onun əmrinə tabe olaraq qanadlarını vururlar. Daş üzərindəki zəncir kimi (səs çıxır). Nəhayət qəlblərindən qorxu getdikdə "RƏBB`iniz nə buyurdu?" deyirlər. Onlar da "Haqq (buyurdu). O, çox uca və böyükdür" deyirlər."*[8]

Qüdrət, hökmdarlıq, böyüklük və ucalıq sahibi ALLAH`ı bütün nöqsanlardan tənzih edirəm. Ondan başqa haqq ilah yoxdur və O, ölməyən diridir.

Ey müsəlmanlar! Bunlar ALLAH`ın ﷻ açıq əlamətlərinə, inkar edilməz qüdrətinə və valeh edici əzəmətinə işarə edən bəzi dəlillərdir. Görəsən biz, ALLAH`ı ﷻ şanına layiq şəkildə təqdir edə bildik mi? Layiqincə Ona ﷻ təzim edə bildik mi? Yaratdıqları və qulları olaraq biz, Onun ﷻ üzərimizdəki haqqını

---

8 əl-Buxari.

yerinə yetirdik mi? Muaz ibn Cəbəl ﷺ belə deyir:

"Mən Peyğəmbərin "ufeyr" deyilən heyvanının arxasına minmişdim. O ﷺ mənə:

*"Ey Muaz! ALLAH`ın, qulları üzərindəki haqqı və qulların ALLAH`ın üzərindəki haqqı nədir bilirsənmi?"*

"ALLAH və Rəsulu daha yaxşı bilir" dedim. Belə buyurdu:

*"ALLAH`ın qulları üzərindəki haqqı, heç bir şeyi şərik qoşmayaraq Ona ibadət etmələridir. Qulların ALLAH üzərindəki haqqı isə, Ona heç bir şeyi şərik qoşmayana əzab etməməsidir."*[9]

Ey müsəlmanlar! Zülmün ən pisi və günahların ən böyüyü ALLAH`a ﷻ şərik qoşmaqdır. Yalnız Onun ﷻ haqqı olan şeyləri başqası üçün etmək və başqasına yönəlməkdir..

9 əl-Buxari. Muslim.

***"...ALLAH`a şərik qoşana ALLAH, şübhəsiz ki, Cənnəti haram edər. Onun düşəcəyi yer Cəhənnəmdir. Zalımların heç bir köməkçisi yoxdur!"***[10]

ALLAH ﷻ belə buyurur:

***"...Belə olduğu təqdirdə, murdar** (başdan-ayağa murdarlıq olan) **bütlərdən qaçın, yalan sözlərdən də** (ALLAH`a şərik qoşmaqdan da) **çəkinin! Batildən haqqa dönərək yalnız ALLAH`a təslim olduğunuz və Ona şərik qoşmadığınız halda! ALLAH`a şərik qoşan kimsə göydən düşən, quşların onu sürətlə alıb apardığı, yaxud küləyin sovurub uzaqlara atdığı bir şeyə** (məxluqa) **bənzər."***[11]

ALLAH`ın qulları! Şirkdən və şirkə yol açan səbəblərdən çəkinin! Bilin ki, tanımaq, ondan qurtulmağın yoludur. Huzeyfə ibn əl-

---

10 əl-Maidə surəsi, 5/72.

11 əl-Həcc surəsi, 22/30-31.

Yəmən رضي الله عنه belə deyir: "İnsanlar, Rəsulullaha ﷺ xeyirli şeylər haqda soruşurdular. Mən isə, gəlməsindən qorxduğum üçün, şərr haqda soruşardım."[12]

Ey müsəlmanlar! Elmdə zəif olan və Peyğəmbərinin ﷺ şəriətinə çox az riayət və tabe olan bəzi müsəlmanların üzləşdikləri kədərli hallardan biri də, tövhidin əslinə və kamilliyinə tərs düşən hallara düşmələridir. Bu hal, ALLAH`a عز وجل ibadət və itaət tövhidi ilə bağlı bəzi mövzu və hökmlərə diqqət çəkməyi və xəbərdarlıq etməyi vacib edir. Quranın parlaq dəlilləri və sünnənin gözəl hüccətləri, susayanın susuzluğunu yox edəcək, çətinlikdə olana yardım edəcək, azanı doğru yola gətirəcək və RAHMAN`ın dostlarını şeytanın dostlarından üstün edəcək şəkildə açıq bir bəyan ilə gəlmişdir:

"*(Ya Rəsulum! Müşriklər)* ***sənin yanına gəlib elə bir məsəl çəkməzlər ki, Biz sənə***

---

12 əl-Buxari. Muslim.

*(onun)* ***doğrusunu və*** *(onların gətirdikləri misallardan)* ***izahatca daha yaxşısını gətirməyək."***[13]

Ey müsəlmanlar! Tövhidə əməl etməyin bir şərti də, çirkin mənada deyilməmiş olsa belə, ALLAH`a ﷻ şirk ifadə edən sözləri söyləməkdən çəkinməkdir. ALLAH`dan ﷻ başqasına and içmək kiçik şirkdir. ALLAH`dan ﷻ başqasına and içən, təhlükəli bir günah edir. And içən, and içdiyi şeyin ALLAH ﷻ kimi ibadətə layiq olduğuna inanırsa, bu böyük şirkdir. Rəsulullah ﷺ belə buyurur:

*"ALLAH`dan başqasına and içən, şübhəsiz kafir olmuşdur və ya şərik qoşmuşdur."*[14]

Peyğəmbər ﷺ belə buyurur:

---

13 əl-Furqan surəsi, 25/33.
14 Əhməd ibn Hənbəl.

*"Nə atalarınıza, nə analarınıza və nə də (şirk qoşulan) şəriklərə and içməyin. Ancaq ALLAH`a and için. Ancaq doğru danışanda ALLAH`a and için."*[15]

Peyğəmbərə, vəli və ya cinə, Kəbəyə, şərəf və həyata and içmək caiz deyildir. Ancaq ALLAH`a عز وجل, Onun عز وجل isimləri və sifətlərinə and içmək caizdir. Kim ALLAH`dan عز وجل başqasına and içərsə, tövbə etməsi və bunu bir daha təkrarlamaması vacibdir. Sa`d ibn Əbi Vaqqas رضي الله عنه bunu rəvayət edir:

"Bəzi mövzular haqda söhbət edirdik. Mən, cahiliyyətdən yeni dönmüşdüm. Lat və Uzzaya and içdim. Rəsulullahın ﷺ səhabələri mənə belə dedilər: "Nə pis söz söylədin. Rəsulullahın ﷺ yanına get və Ona bunu xəbər ver. Çünki biz, sənin kafir olduğunu görürük. Rəsulullahın ﷺ yanına getdim və bu haqda xəbər verdim. Mənə belə dedi:

---

15 Əbu Davud.

*"Üç dəfə, "Lə ilahə ill`əllah`u vahdəhu lə şərikə ləhu / ALLAH`dan başqa haqq ilah yoxdur, O, təkdir və şəriki yoxdur" de. Üç dəfə şeytandan ALLAH`a sığın. Sol tərəfinə üç dəfə tüfür və bir daha bunu etmə."*[16]

Ey müsəlmanlar! Xaliq ilə məxluqu bərabər edən "ALLAH və sən istəsən", "Mənim üçün ALLAH`dan və səndən başqası yoxdur", "ALLAH`a və sənə güvəndim" və buna bənzər cümlələrlə çirkin şirk kəlimələri və qadağan edilmiş sözləri deməkdən çəkinin.

Bir adamın Peyğəmbərə ﷺ belə dediyi rəvayət edilir: "ALLAH və sən istəsən" Bunu eşidən Rəsulullah ﷺ belə buyurur:

*"Məni ALLAH`a şərik qoşursan? Əksinə "ancaq ALLAH istəsə" de."*[17]

---

16 ən-Nəsai.
17 Əhməd ibn Hənbəl.

ALLAH`ın qulları! ALLAH`a ﷻ gözəl isimləri və uca sifətləri ilə yaxınlaşın! Ehtiyacınızı, zəifliyinizi və ALLAH`a ﷻ olan möhtaclığınızı dilə gətirərək ALLAH`a ﷻ yönəlin! Saleh əməl ilə Ona ﷻ yönəlin! Tövhidə şirkin bulaşmasının qarşısını almağın ən mühim yollarından biri də, ALLAH`a ﷻ Tövhidə məşru təvəssüllərlə yönəlməkdir. Mülkün və ulduzların RƏBB`i ALLAH`a ﷻ şirk qoşmağa səbəb olan bidət kəlmələr və təvəssüllərdən çəkinin! Peyğəmbərin məqamı, hörməti, bərəkəti və haqqı ilə təvəssül etmək və ya övliyaların haqqı və buna bənzər yasaqlanmış təvəssül şəkilləri ilə, şəriətdə olmayan dualarla təvəssül etmək kimi...

Ey müsəlmanlar! Bəzi dəyərsiz şəxslərin və cahil insanların etdiyi kimi qöz mıncığı və üzərlik taxmaqdan çəkinin! Belə şəxslər, halqalar və iplər taxırlar. Tilsimlər və sümüklər taxır, yanlarında canavar dişləri və heyvan dəriləri daşıyırlar. Bunları boyunlarına, minək-

lərinə və qapılarına asırlar. Bunun, pislik və fəlakətləri uzaqlaşdırdığına, çətinlik və bələları yox etdiyinə, nəzərə və həsədə mane olacağına inanırlar. Bütün bunlar insanı həlaka aparan və məhv edən şirklərdəndir. Çünki, sığınmaq, dua etmək ancaq ALLAH`a ﷻ olar.

sənə bir sıxıntı versə, (səni ondan) ALLAH`dan başqa heç kəs qurtara bilməz. Əgər (ALLAH) sənə bir xeyir yetirsə (heç kəs Ona mane ola bilməz). Çünki O, hər şeyə qadirdir! O, Öz qulları üzərində hakimi-mütləqdir. O, hikmət sahibidir, (hər şeydən) xəbərdardır!"[18]

Ey müsəlmanlar! Bu xurafatlar və inanclar heç bir zaman fəlakətlərdən qorumaz. Xəstəlik və bəlalara qarşı mühafizə etməz. Bu düşüncə və inancların tərk edilməsi, bunlarla bağlılığın tamamilə kəsilməsi vacibdir. İmran ibn Husayndan ﵁ bu rəvayət edilir: "Rəsulullah ﷺ bir adamın bazusunda sarı bir halqa gördü. *"Bu nədir?"* dedi. "Zəiflik səbəbilə (taxdım)" deyir. Rəsulullah belə buyurur:

---

18 əl-Ən`am surəsi, 6/17-18.

*"O ancaq sənin zəifliyini artırır. Onu at! Çünki o, üzərində ola-ola ölsən əbədi olaraq qurtuluşa qovuşa bilməzsən."*[19]

Rəsulullah ﷺ belə buyurur:

*"Tilsim (üzərlik və s.) asanın ALLAH (işini) tamamlamasın."*[20]

Yenə bir hədisdə, Rəsulullahın ﷺ yanına bir dəstə beyət etmək üçün gəlir. Doqquz nəfərdən beyət alır, ancaq birindən almır. "Ya Rəsulullah! Nə üçün doqquzundan beyət aldın ancaq bunu tərk etdin?" deyirlər. Rəsulullah ﷺ *"Üstündə üzərlik var"* deyir. O adam əlini soxub üzərliyi qoparır və beyət edir. Rəsulullah ﷺ belə buyurur:

*"Kim üzərlik taxarsa şirk qoşmuşdur."*[21]

---

19 Əhməd ibn Hənbəl.
20 Əhməd ibn Hənbəl.
21 Əhməd ibn Hənbəl.

Huzeyfə ibn əl-Yəməndən ﷺ bu rəvayət edilir: O bir adamın əlində oxunmuş bir ip görür. Onu qopararaq belə deyir: "Bu üstündə olarkən ölsəydin sənin cənazə namazını qılmazdım." Sonra bu ayəni oxuyur:

***"Onların əksəriyyəti ancaq şərik qoşaraq ALLAH`a inanarlar."***[22]

Ey müsəlmanlar! Sehrbazlara, kahinlərə və insanları aldadan cadugərlərə, falçılara, baxıcılara, münəccimlərə, bürclərdən xəbər verənlərə, əl və fincan falına baxanlara və mediumlara getməkdən çəkinin! Onlar, qeybi (bilinməyəni) və qəlblərdən keçəni bildiklərini iddia edirlər. Onlar saxtakar və yalançıdırlar. İnsanları aldadaraq yoldan çıxarırlar. Bəzi cizgilər çəkər, mənasız sözlər söyləyərlər. Mənasız düşüncələrə və xurafatlara sahibdirlər. Cinlərdən yardım istəyərlər. Bəzi hərflər, rəqəmlər və işarələrdən ibarət yazılar yazarlar. Hətta onların yanına gələnlərdən rəngini

22 Yusuf surəsi, 12/106.

və vəsflərini bildirdikləri bəzi heyvanları kəsmələrini istəyirlər. Qanlarını vücudlara, divarlara və qapının künclərinə sürtərlər. Bu şəkildə cinə sığınır və şeytana ibadət edirlər. ALLAH`a ﷻ şirk qoşarlar. Rəsulullah ﷺ belə buyurur:

*"ALLAH`dan başqası üçün qurban kəsənə ALLAH lənət etsin!"*[23]

Onların hiylələrindən biri də yanlarına gələnlərə basdırılması və ya yandırılması üçün bəzi əşyalar vermələridir.

ALLAH`ın qulları! Belə şəxslərin yanına getməkdən və onlara sual verməkdən çəkinin! əs-Sadiq, əl-Məsduq olan Rəsulullah ﷺ belə buyurur:

*"Falçıya müraciət edib ondan nəsə soruşanın qırx gün namazı qəbul olunmaz."*[24]

23 Muslim.
24 Muslim.

Həmçinin belə buyurur:

*"Falçının və ya sehrbazın yanına gəlib onun dediyinə inanan şəxs Muhəmmədə nazil olanı inkar etmişdir."*[25]

İmran ibn Husayn ﷺ Rəsulullahın ﷺ belə buyurduğunu rəvayət edir:

*"Həm ovsunlayan, həm də ovsunlatdıran, həm fala baxan, həm də fala baxdıran, həm cadu edən, həm də cadu etdirən bizdən deyildir."*[26]

Ey müsəlmanlar! Tövhidin saflığını çirkabdan qoruyun! Şirkin pisliklərinə qarşı diqqətli olun! Bilin ki, bir ağacla, bir qəbirlə və ya daşla, bir yerlə, bir mağara ilə, bir çeşmə ilə və ya bir əsərlə təbərrük etmək (ondan bərəkət və fayda ummaq) caiz deyildir.

---

25 Əhməd ibn Hənbəl.
26 əl-Bəzzar.

Əbu Vaqid əl-Heysəmidən bu rəvayət edilir: "Səhabələr Rəsulullah ﷺ ilə birlikdə Məkkədən Huneynəyə doğru yola çıxırlar. Kafirlərin müqəddəs saydıqları və təbərrük niyyəti ilə silahlarını asdıqları, "Zatu Ənvat" deyilən bir ağacları vardır. Böyük yaşıl bir ağacın yanından keçərkən "Ey ALLAH`ın Rəsulu! Onların bir "Zatu Ənvat"ı olduğu kimi bizə də bir "Zatu Ənvat" təyin et" deyirlər. Rəsulullah ﷺ belə buyurur:

*"Nəfsim əlində olana (ALLAH`a) and olsun ki, İsrail oğullarının Musaya "Onların ilahları kimi bizə də bir ilah təyin et" dedikləri kimi dediniz. O belə dedi: "Siz cahillik edən bir qövmsünüz." Şübhəsiz bunlar bir yoldur və siz də sizdən əvvəlkilərin yollarından bir-bir keçəcəksiniz."*[27]

Ey müsəlmanlar! Bilin ki, Peyğəmbərin qəbri ilə, əşyaları, paltarları və ibadət etdiyi yerlərlə də təbərrük etmək caiz deyildir.

---

27 Əhməd ibn Hənbəl.

Məscidlərin divarları, torpaqları və ya qapıları ilə öpərək və ya əl sürtərək təbərrük etmək caiz deyildir. Bu məscid Məscid-i Haram və Məscid-i Nəbəvi olsa belə... Hacəru`l-Əsvədi öpmək və Ruknu`l-Yəməni ilə Hacəru`l-Əsvədə əl sürtmək isə məşrudur. İbn Ömər ﵄ belə deyir: "Peyğəmbərin Yəmən tərəfindəki iki küncdən (Ruknu`l-Yəməni və Hacəru`l-Əsvəd) başqa Kəbənin heç bir yerinə əl sürtdüyünü görmədim."[28] Yenə də bununla məqsəd təbərrük deyildir. Məqsəd sadəcə ibadət və Rəsulullaha ﷺ tabe olmaqdır.

Ömər ﵁ belə deyir: "ALLAH`a and olsun ki, mən səni öpürəm ancaq sənin bir daş olduğunu, zərər və fayda vermədiyini bilirəm. Rəsulullahın səni öpdüyünü görməsəydim səni öpməzdim."[29]

Ümumiyyətlə, ALLAH`ın ﷻ Kitabından və ya Rəsulunun sünnəsindən, təbərrük etmə-

---

28 əl-Buxari. Muslim.

29 Muslim.

yin caiz olduğuna dair heç bir dəlil olmadan bir şeylə təbərrük etmək caiz deyildir.

Ey müsəlmanlar! İnsanı məhv və həlak edən şirkin bir növü də ölülərdən yardım diləmək, onlara dua edip yalvarmaq, ehtiyacların qarşılanmasını, problem və çətinliklərin ortadan qaldırılmasını onlardan istəmək, nəzir və qurban ilə, qəbirlərin ətrafında tavaf etməklə; divarlarını və örtüklərini öpərək, yanlarında etiqafa girərək onlara sığınmaq, onlar üçün mühafizə və xidmətçilər təyin etmək və buna bənzər bütlərə ibadət edənlərin və şeytanın dostlarının əməllərindən olan davranışlardır. Bunlar, əməlləri puç edən böyük şirkdir. ALLAH`ın ﷻ Kitabına və insanların əfəndisi Muhəmmədin ﷺ sünnəsinə tərsdir. ALLAH ﷻ belə buyurur:

***"ALLAH`ı qoyub Qiyamətədək özünə cavab verə bilməyən bütlərə ibadət edən kimsədən daha çox*** *(haqq yoldan)* ***azmış kim ola bilər?! Halbuki bunlar*** *(bu bütlər)* ***onların***

*(bütpərəstlərin)* ***ibadətindən xəbərsizdirlər! İnsanlar məhşərə toplanacaqları zaman bunlar*** *(bu bütlər)* ***onlara*** *(müşriklərə)* ***düşmən olacaq və onların ibadətini inkar edəcəklər."***[30]

Yenə belə buyurur:

***"…Bu sizin RƏBB`iniz olan ALLAH`dır, hökm Onundur. Sizin Ondan qeyri ibadət etdikləriniz bir çəyirdək qabığına belə sahib deyillər. Əgər siz onları çağırsanız*** *(dua etsəniz)*, ***onlar sizin çağırışınızı eşitməzlər; eşitsələr də cavab verə bilməzlər. Özləri də Qiyamət günü sizin*** *(Onları ALLAH`a)* ***şərik qoşduğunuzu*** *(onlara büt kimi ibadət etdiyinizi)* ***danacaqlar.*** *(Ya Peyğəmbər!)* ***Heç kəs sənə hər şeydən xəbərdar olan*** *(ALLAH)* ***kimi xəbər verə bilməz!***[31]

Ey müsəlmanlar! Peyğəmbərlərin və salehlərin qəbirlərini məscid edərək üstlərinə

---

30 əl-Əhqaf surəsi, 46/5-6.
31 Fatir surəsi, 35/13-14.

qübbələr tikmək, bəzəmək və üzərlərinə örtü örtmək böyük günahlardan və şirkə aparan vasıtələrdəndir. Nəticədə bu qəbirlər, ALLAH`-dan عز وجل başqa ibadət edilən bütlərə dönür.

Aişədən رضي الله عنها və Abdullah ibn Abbasdan رضي الله عنهما belə dedikləri rəvayət edilir: "Peyğəmbər ölüm ayağında bir paltarı ilə üzünü örtür. Nəfəs alması çətinləşincə üzünü açır. Bu halda olaraq belə deyir:

*"ALLAH, yəhudilərə və xristianlara lənət etsin. Peyğəmbərlərinin məzarlarını məscid etdilər."*[32]

Onların etdiklərinə qarşı xəbərdarlıq edirdi. Belə buyurur:

*"İnsanların ən şərliləri Qiyamət qopduğunda yaşayanlar və qəbirləri məscid edənlərdir."*[33]

Ey müsəlmanlar! Qəbirlərin üstünü tikmək, boyayıb bəzəmək və üzərlərinə yazı yaz-

---

32 əl-Buxari.

33 Əhməd ibn Hənbəl.

maq məşru olmayan bir işdir. Dinimiz tərəfindən rədd edilmiş və yasaqlanmışdır. Cabir ﷺ belə deyir:

"Rəsulullah ﷺ qəbirləri boyamağı, qəbirlərin üstündə oturmağı və üstünü tikməyi qadağan etdi."[34]

Səhih bir sənədlə gələn bir rəvayətdə də *"Üzərinə yazı yazılmağı"* əlavə edir.

Əli ibn Əbi Talibin ﷺ Əbu`l-Həyyac əl-Əsədiyə belə dediyi rəvayət edilir: "Rəsulullah ﷺ məni bütün surətləri (şəkilləri) silməyə və bütün yüksək məzarları yerlə düz etməyə göndərdiyi kimi, mən də səni göndərimmi?"[35]

Bir peyğəmbərin və ya vəlinin qəbrinin yanında ALLAH`a ﷻ ibadət etmək şirkə yol açan səbəblərdən biridir. Üstünə məscid tikilməsə belə qəbirləri məscid etməkdir. Buna görə də, qəbirlərin yanında dua etmək və ya peyğəmbərin qəbrinin yanında dua etmək ca-

---

34 ət-Tirmizi.

35 Muslim.

iz deyildir. Çünki bu yerlər duaların qəbul edildiyi yerlər deyildir. Əbu Ya`la və Muxtarada Hafiz əd-Diya bunu rəvayət edirlər: "Əli ibn Huseyn bir adamın Peyğəmbərin qəbrinin yanında olan bir boşluğun içinə girdiyini və orada dua etdiyini görür. Onu bundan çəkindirir və belə deyir: "Atamdan eşitdiyim, onun da babamdan eşitdiyi, onun da Rəsulullahdan ﷺ eşitdiyi bir hədisi xəbər verimmi? Belə buyurur:

*"Qəbrimi bayram yerinə çevirməyin. Evlərinizi də qəbirlərə çevirməyin. Mənə salavat gətirin. Çünki harada olsanız da salamınız mənə çatar."*[36]

ALLAH ﷻ məni və sizi hidayətə çatmış doğru yolu göstərənlərdən və Rəsulların Əfəndisinin ﷺ sünnəsinə tabe olanlardan etsin. Bu eşitdiklərinizi söyləyib, ALLAH`dan ﷻ özüm və sizin üçün məğfirət diləyirəm...

---

36 Əbi Ya`la.

Ehsanı üçün ALLAH`a həmd olsun. Müvəffəqiyyətli etməsi və nemətləndirməsi üçün Ona şükürlər olsun. ALLAH`dan başqa haqq ilah olmadığına şəhadət edirəm. O, Təkdir və şəriki yoxdur, şanı ucadır. Şəhadət edirəm ki, Muhəmməd Onun qulu və Rəsuludur. ALLAH`ın rizasına dəvət edəndir. ALLAH, Ona, ailəsinə, əshabına və din qardaşlarına xeyir-dua və çoxlu salam etsin.

Bundan sonra; ALLAH`dan layiqincə qorxun, gizli və aşkar hallarınızda Onu düşünün!

***"Ey iman gətirənlər! ALLAH`dan qorxun və (****imanında, sözündə, işində****) doğru olanlarla olun!"***[37]

Hökmündə ALLAH`a ﷻ şirk qoşmaq, ibadətində ALLAH`a ﷻ şirk qoşmaq kimidir. ALLAH`ın ﷻ və Rəsulunun ﷺ hökmünün ən doğru hökm olduğunu inkar edən, ALLAH`-

---

37 ət-Tövbə surəsi, 9/119.

dan ﷻ başqasının hökmünün ALLAH`ın ﷻ və Rəsulunun ﷺ hökmündən daha gözəl və ya onunla eyni olduğuna inanan ya da ALLAH`ın ﷻ və Rəsulunun ﷺ hökmünə zidd olan bir hökmün yerinə yetirilməsinin mümkünlüyünə inanan, Muhəmmədə ﷺ nazil olanı inkar etmişdir və İslam dinindən çıxmışdır. ALLAH ﷻ belə buyurur:

***"Amma, xeyr!*** *(Ya Rəsulum!)* ***RƏBB`inə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim*** *(münsif)* ***təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə,*** *(həqiqi surətdə)* ***iman gətirmiş olmazlar."***[38]

Həmçinin belə buyurur:

***"****(Ya Rəsulum!)* ***Sənə nazil edilənə*** *(Qurana)* ***və səndən əvvəl nazil edilənlərə*** *(Tövrata, İncilə)* ***iman gətirdiklərini iddia edənləri*** *(mü-*

38 ən-Nisa surəsi, 4/65.

*nafiqləri)* ***görmürsənmi? Onlar Tağutun*** *(şeytanın)* ***hüzurunda mühakimə olunmaq*** *(şeytanın məhkəməsinə müraciət etmək)* ***istəyirlər. Halbuki onlara*** *(şeytana)* ***inanmamaları əmr olunmuşdur. Şeytan isə onları*** *(doğru yoldan)* ***çox uzaq olan zəlalətə sürükləmək istər"***[39]

Ey müsəlmanlar! Günləri və ayları uğursuz saymaq, uğurlu və uğursuz sayılan şeylərə görə hərəkət etmək, İslam şəriətinin ləğv etdiyi cahillik adətlərindəndir. Bir şeyi uğursuz saymaq qədəri dəyişdirməz. Səfər ayı da zərər və ya fayda gətirməz.

Peyğəmbərin ﷺ belə buyurduğu rəvayət edilir:

*"Advə (xəstəliyin öz başına yayılması), uğursuzluq, bayquş və Safər (ayının haram aylardan olması)deyə bir şey yoxdur."*[40]

---

39 ən-Nisa surəsi, 4/60.
40 əl-Buxari.

ALLAH`dan qorxun ey ALLAH`ın qulları! Qəlblərinizi Məlikinizə (ALLAH`a) ﷻ bağlayın və xurafatların hər növü ilə mübarizə edin!

İnsanların ən xeyirlisinə xeyir-dua və salam edin. ALLAH ﷻ belə buyurur:

***"Həqiqətən, ALLAH və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər** (xeyir-dua verirlər)**. Ey iman gətirənlər! Siz də ona salavat göndərib** (onun üçün salavat deyib) **layiqincə salamlayın!***[41]

***Salah əl-Budeyr***
***03.02.1422 hicri***

41 əl-Əhzab surəsi, 33/56.